"Təsdiq edirəm"
Estetik Tərbiyə üzrə Respublika
Tədris-Metodik Mərkəzinin
direktoru Kəmalə Cəfərzadə
ƏMR № 10
27 yanvar 2017-ci il

## 15 sentyabr – Bilik Gününə həsr olunmuş respublika rəngkarlıq müsabiqəsinin

# Ə S A S N A M Ə S İ

Azərbaycan Respublikası Təhsil Nazirliyinin Estetik Tərbiyə üzrə Respublika Tədris-Metodik Mərkəzi Təhsil İşçilərinin Peşəkar İnkişafı İnstitutu ilə birgə uşaq və gənclər arasında "İnkişafa aparan təhsil" mövzusunda respublika rəngkarlıq müsabiqəsi elan edir.

**I. Müsabiqənin məqsədi:**

Müsabiqənin keçirilməsində məqsəd – uşaq və gənclərin şüurunda təhsilin yerini təsbit etmək, onların yaradıcı təfəkkürünü təhsil və inkişafla əlaqələndirmək, yaradıcılığın inkişafa yönəlmiş aspektlərini qabartmaqdan ibarətdir.

**II. Müsabiqənin təşkili və keçirilmə qaydaları:**



Müsabiqədə 7–17 yaş arasında olan ümumtəhsil məktəblərinin şagirdləri və məktəbdənkənar müəssisələrin dərnək üzvləri iştirak edə bilərlər.

Rəngkarlıq əsərləri müxtəlif ölçülərdə olan, çərçivələnmiş kətan üzərində yağlı boya, akril və ya tempera ilə işlənilməlidir.

Əsərlərin arxa hissəsində müəllifin adı, soyadı, atasının adı, təvəllüdü, yaşadığı şəhər, oxuduğu məktəb və sinif (Yaradıcılıq Mərkəzi), müəssisənin və iştirakçının

əlaqə nömrələri qeyd olunmalıdır. İşlə birgə müəllif və onun əsəri haqqında rəhbərlik tərəfindən təsdiq edilmiş ətraflı məlumat göndərilməlidir. Müsabiqəyə hər şagird yalnız bir əsər təqdim edə bilər. Iki və daha çox şagirdin yaratdığı qrup işləri qəbul edilmir. Müsabiqəyə təqdim olunmuş işlər geri qaytarılmır.

Rəngkarlıq əsərləri 24-26 may 2017-ci il tarixlərində Estetik Tərbiyə üzrə Respublika Tədris-Metodik Mərkəzinin Təsviri Sənət Qalereyasına təhvil verilməlidir (ünvan: Nəsimi rayonu, Azadlıq prospekti 16/21, tel: 0124981552, e-mail: artgallery@mk.edu.az).

**III. Əsərlərin qiymətləndirilməsi və qaliblərin mükafatlandırılması:**

Müsabiqəyə təqdim olunan rəngkarlıq nümunələrinin qiymətləndirilməsi Azərbaycan Respublikası Təhsil Nazirliyinin, Estetik Tərbiyə üzrə Respublika Tədris-Metodik Mərkəzinin və Təhsil İşçilərinin Peşəkar İnkişafı İnstitutunun mütəxəssislərindən ibarət münsiflər heyəti tərəfindən həyata keçiriləcək.

Təhsilin inkişafı ilə bağlı olan əsərlər aşağıdakı meyarlar əsasında qiymətləndiriləcək:

- ✓ Məzmunu ətraflı əhatə edən maraqlı ideya;
- ✓ Məzmuna uyğun kompozisiyanın quruluşu;
- ✓ Rəngkarlıq texnikasının orijinal tətbiqi.

Qiymətləndirmə 7-9, 10-12, 13-17 yaş kateqoriyası üzrə aparılacaq. Müsabiqəyə cari ilin sentyabr ayında yekun vurulacaq. Qaliblər diplom və hədiyyələrlə mükafatlandırılacaqlar.